**UDC:** 297
**LBC:** 63.3(0=…); 66.1; 71.1
**MJ №** 284
10.33864/2617-751X.2025.v8.i3.84-96

# SHEIKH QASIM MUHAJIR IREVANI AND HIS RELIGIOUS-SOCIAL ACTIVITIES

**Hilal Aghamoghlanov***

**Abstract.** In the historical lands of Azerbaijan, specifically in the regions of Western Azerbaijan, many distinguished Islamic scholars of our people were born, lived, and left an indelible mark on history. The historical Muslim land of Irevan has given birth to numerous prominent figures in the Islamic world. One of these figures, about whom this article will discuss, is Sheikh Kasim Muhajir Irevanî. Born in Irevan, this Islamic scholar obtained advanced religious knowledge in Tabriz and then returned to his homeland, Irevan, where he devoted himself to the religious and spiritual service of his people. His life coincided with a period of Armenian aggression against Azerbaijanis, during which he took the lead in defending his fellow countrymen by heading the resistance. However, due to the imbalance of power and resources, which favored the Armenians and their supporters, the resistance weakened. Eventually, with the establishment of Soviet rule in Irevan, Sheikh Kasim and his followers were forced to emigrate to Iran. Settling in the city of Khoy, this great religious and social figure never forgot his love for his homeland, adopting the pen name "Muhajir" and living with the hope that one day the exile would end. The article discusses his life and activities, provides information about his written works, and analyzes his religious and social views as presented in his book Islamic Culture.

**Keywords:** Religious Studies, Western Azerbaijan, Irevan, Sheikh Qasim Muhajir Irevanî, Islamic Scholar, National and Spiritual Activities

* Dissertation student and research worker of the Institute of Oriental Studies named after Academician Z.M. Bunyadov of ANAS; Baku, Azerbaijan
E-mail: hilal_ali@mail.ru
https://orcid.org/0009-0005-7317-3206

**To cite this article:** Aghamoghlanov, H. [2025]. SHEIKH QASIM MUHAJIR IREVANI AND HIS RELIGIOUS-SOCIAL ACTIVITIES. *“Metafizika” journal, 8(3),* pp.84-96.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i3.84-96

**Article history:**
*Received: 24.12.2024*
*Accepted: 02.06.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 297
**ББК:** 63.3(0=…); 66.1; 71.1
**MJ №** 284
10.33864/2617-751X.2025.v8.i3.84-96

# ШЕЙХ КАСИМ МУХАДЖИР ИРЕВАНИ И ЕГО РЕЛИГИОЗНО-ОБЩЕСТВЕННАЯ ДЕЯТЕЛЬНОСТЬ

**Хилал Агамогланов***

**Абстракт.** На исторической территории Азербайджана- в Западном Азербайджане- родились и жили выдающиеся исламские ученые нашего народа, которые оставили неизгладимый след в истории. Иреван, являясь древней мусульманской землей, подарил исламскому миру многих великих личностей. Одним из таких выдающихся деятелей, о котором пойдет речь в данной статье, является шейх Касим Мухаджир Иревани. Этот исламский ученый, родившийся в Иреване, получил высшее религиозное образование в Тебризе, а затем вернулся на свою родную землю - в Иреван, чтобы посвятить свою жизнь служению народу в области религиозных и духовных нужд. Его жизнь пришлась на период агрессии армян против азербайджанцев, и он стал на защиту своего народа, возглавив сопротивление. Однако, из-за несоответствия сил и ресурсов в пользу армян и их сторонников, сопротивление ослабло, и после установления советской власти в Иреване шейх Касим и его сторонники были вынуждены эмигрировать в Иран. Поселившись в городе Хой, этот великий религиозно-общественный деятель никогда не забывал свою любовь к родине, приняв псевдоним "Мухаджир" и живя с надеждой на завершение изгнания. В статье рассматриваются его жизнь и деятельность, дается информация о написанных им произведениях, а также анализируются его религиозно-общественные взгляды, изложенные в книге "Исламская культура".

**Ключевые слова:** Религиоведение, Западный Азербайджан, Иреван, Шейх Касим Мухаджир Иревани, исламский ученый, национальная и духовная деятельность

---

* Диссертант и научный сотрудник Института Востоковедения имени академика З.М.Буниятов НАНА; Баку, Азербайджан
E-mail: hilal_ali@mail.ru
https://orcid.org/0009-0005-7317-3206

**Цитировать статью:** Агамогланов, Х. [2025]. ШЕЙХ КАСИМ МУХАДЖИР ИРЕВАНИ И ЕГО РЕЛИГИОЗНО-ОБЩЕСТВЕННАЯ ДЕЯТЕЛЬНОСТЬ. *Журнал «Metafizika», 8(3),* с.84-96.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i3.84-96

**История статьи:**
*Статья поступила в редакцию: 24.12.2024*
*Отправлена на доработку: 27.01.2025*
*Принята для печати: 02.06.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit
https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 297
**KBT:** 63.3(0=…); 66.1; 71.1
**MJ №** 284
10.33864/2617-751X.2025.v8.i3.84-96

# ŞEYX QASİM MÜHACİR İRƏVANİ VƏ ONUN DİNİ-İCTİMAİ FƏALİYYƏTLƏRİ

**Hilal Ağamoğlanov***

**Abstrakt.** Tarixi Azərbaycan torpaqları olan Qərbi Azərbaycan ərazilərində xalqımızın görkəmli islam alimləri dünyaya gəlmiş, yaşamış və tarixdə silinməz izlər buraxmışlar. İrəvan islam aləminə bir çox böyük şəxsiyyətlər bəxş etmişdir. Onlardan biri barəsində bu məqalədə söhbət açacağımız Şeyx Qasim Mühacir İrəvanidir. İrəvanda doğulmuş bu islam alimi Təbrizdə ali dini biliklərə yiyələnmiş və yenidən öz doğma vətəninə - İrəvana qayıdaraq xalqının dini-mənəvi xidmətində dayanmışdır. Yaşadığı dövr ermənilərin azərbaycanlılara qarşı təcavüzlərinə təsadüf etdiyindən o, həmvətənlərini müdafiə etmək üçün müqavimətin ön cərgələrində dayanmışdır. Lakin güc və təchizat nisbəti ermənilərin və onların havadarlarının tərəfində olduğu üçün müqavimət zəifləmiş, sonda İrəvanda Sovet hakimiyyətinin qurulması ilə bərabər Şeyx Qasim və tərəfdarları İrana hicrət etməyə məcbur qalmışlar. Xoy şəhərində məskunlaşan bu böyük dini-ictimai xadim vətən sevdasını əsla unutmamış, özünə “Mühacir” təxəllüsü götürərək bir gün hicranın bitəcəyi arzusu ilə yaşamışdır. Məqalədə onun həyat və fəaliyyəti haqqında söz açılır, yazdığı əsərləri barədə məlumat verilir, “İslam mədəniyyəti” kitabındakı dini-ictimai baxışları təhlil edilir.

**Açar sözlər:** dinşünaslıq, Qərbi Azərbaycan, İrəvan, Şeyx Qasim Mühacir İrəvani, islam alimi, milli-mənəvi fəaliyyət

---

* AMEA akad.Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun dissertantı və elmi işçisi; Bakı, Azərbaycan
E-mail: hilal_ali@mail.ru
https://orcid.org/0009-0005-7317-3206

**Məqaləyə istinad:** Ağamoğlanov, H. [2025] ŞEYX QASİM MÜHACİR İRƏVANİ VƏ ONUN DİNİ-İCTİMAİ FƏALİYYƏTLƏRİ. *“Metafizika” jurnalı, 8*(3), səh.84-96.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i3.84-96

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 24.12.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 27.01.2025*
*Çapa qəbul edilmişdir: 02.06.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**1.Giriş**

Tarixən Azərbaycanın ayrılmaz bir hissəsi olan Qərbi Azərbaycan ərazilərində görkəmli islam alimləri yaşayıb-yaratmış və tarixdə silinməz izlər buraxmışlar. İrəvan şəhəri islam dünyasına dini və dünyəvi elmlərdə bir çox böyük şəxsiyyətlər bəxş etmişdir. Onlardan biri də bu məqaləmizdə haqqında söhbət açacağımız Şeyx Qasim Mühacir İrəvanidir.

**2.Həyatı**

Atasının adı Zeynəlabidin olan Qasim 1875-ci ildə Qərbi Azərbaycanın İrəvan şəhərində doğulmuşdur [سعید فاضلی خوئی، علی صدرائی خوئی، جابر فاضلی خوئی، 2012، 185-186]. İlkin təhsilini İrəvanda almış, sonra Xoy şəhərinə gəlmiş, orada təhsilini davam etdirmiş, yenidən doğma vətəninə - İrəvana qayıtmışdır [رسول جعفریان، 2015]. Daha sonra Təbrizə gəlmiş, burada dövrünün böyük təqlid mərcələrindən olan Ağa Mirzə Sadiq Müctəhid Təbrizinin yanında ruhani və ilahiyyatçı kimi yetişmişdir. Bir müddət sonra Təbrizdəki xaos və qarışıqlıq səbəbindən oranı tərk edib yenə İrəvana qayıtmışdır [محمد الوانساز خويي، 2011، 285].

Şeyx Qasim Mühacir İrəvani 26 yanvar 1943-cü ildə Cənubi Azərbaycanın Xoy şəhərində vəfat etmişdir. Onun appendisit səbəbindən öldüyü deyilir [عادل مولایی، محمد الوانساز خويي، 2021، 439].

**3.Dini-ictimai fəaliyyəti**

Bu böyük islam alimi öz ruhani fəaliyyəti ilə bərabər doğulduğu, yaşadığı və bütün qəlbi ilə bağlandığı vətəninin müdafiəsində fövqəladə xidmətlər göstərmişdir. O, İrəvana ikinci qayıdışı ilə vətəninə XIX əsrdən etibarən yerləşdirilmiş ermənilərin yerli müsəlman əhaliyə qarşı təcavüz və zorakılıqlarına şahidlik etmişdir. Ermənilər öz havadarlarının himayəsinə arxalanaraq, aldıqları hərbi dəstəklə azərbaycanlı əhaliyə divan tutur, qətlə yetirir, onları yerlərindən və yurdlarından qovurdular. Bu təcavüzə qarşı bölgə xalqı Şeyx Qasim İrəvanini özlərinə bir rəhbər olaraq görürdülər. Təsadüfi deyil ki, həmin ərəfədə İrəvan, Naxçıvan və ətraf bölgələrin əhalisi müdafiə üçün səylərini birləşdirmiş, müqavimət göstərilməsi üçün Şeyx Qasimin yanına gələrək orduya onun başçılıq etməsini xahiş etmişlər. Vətən sevgisi, cəsarət, fədakarlıq və mübarizlik ruhu Şeyx Qasimi bu vəzifəni üzərinə götürməyə sövq etmişdi. İlk gündən etibarən fəaliyyətə başlamış, xeyli məbləğdə vəsait toplamış, ordunun yerli camaatın imkanları ilə silahlanması, nizami və mütəşəkkil dəstələr halına salınması üçün çalışmış və erməni-rus vandalizminə qarşı müqavimət göstərmişdir. O, zabitlərin azərbaycanlı əsgərlərə hərbi texnikalara yiyələnmələrinə dair təlimlər keçmələrini təmin etmiş, özü də əlinə silah alaraq döyüşmüş, bir müddət ermənilərə qarşı ciddi müqavimət göstərmişdi [محمد الوانساز خويي، 2011، 286]. Lakin ermənilərə havadarları tərəfindən verilən dəstəyin güclü olması, ordunun təchizatındakı çatışmazlıqlar səbəbindən müqavimət getdikcə zəifləmişdi.

Nəhayət İrəvanda kommunist rejimi qalib gəldi. Şeyx Qasim və müqavimət dəstələrinin üzvləri buna boyun əyməyərək Osmanlıya və İrana doğru geri çəkildilər [مهدي آقاسي، 1971، 549].

Şeyx Qasimin Xoyun Sərab məntəqəsində “Mühacir” təxəllüsü ilə yaşayıb fəaliyyət göstərməsi yerləşdiyi məntəqəni özünün daimi vətəni deyil, bir hicrət yurdu olaraq gördüyünü göstərir. “Mühacir” təxəllüsü ilə o, elə bil, hər kəsə əzəli yurdu olan İrəvanı xatırladır, bu adı eşidənlərdən sanki haradan hicrət etdiyini soruşmalarını gözləyirdi. İrəvanın sovet işğalına məruz qalmasına görə qəlbində kommunistlərə qarşı böyük nifrət bəsləsə də, fəaliyyətini onlara qarşı təbliğat aparmaq yönündə qurmurdu. Hər dəfə Qafqazı, xüsusilə doğulub boya-başa çatdığı İrəvan şəhərini xatırladıqda gözlərindən yaşlar axırdı. Özü nimdaş geyimdə və şəraitsiz daxmada yaşasa da, onun kimi vətənindən didərgin düşmüş həmvətənlərinin qayğısına qalır, qazancını onlara xərcləyirdi. Bəzən Məhərrəm matəm məclislərində ona verilən bəxşişləri evə gələnədək yolda ehtiyacı olanlara xərcləyirdi [محمد الوانساز خويي، عادل مولايى، 2021، 438].

Xosrov Kermanşahinin özünə məxsus “Yardanqoli” Telegram səhifəsində [20.04.2020, saat 12.22] verdiyi məlumata görə, koronovirus pandemiyası dövründə Xoy bələdiyyəsinin xahişi ilə Xoyda keçirilən Məhərrəm məclisləri və matəm yürüşlərinin tarixi ilə bağlı reportaj hazırlamışdı. Reportaj əsnasında yaşı 100-ə yaxın olan bir sakinlə söhbət etdilər. O, söhbətində Şeyx Qasim Mühacirini yad etmiş, uşaqlıq dövründə onunla eyni məhəllədə yaşadığını bildirmiş, Şeyxin çox məşhur olmasına baxmayaraq, köhnə əba və libas geyindiyini, tez-tez onların evinə gəlib-getdiyini, ehtiyaclı şəxslərə dolanışıq üçün yardım etdiyini söyləmişdir [Xosrov Kermanşahi, 2020].

Şeyx Qasim Mühacir İrəvani bu yönlərindən əlavə, vətən, din və millət yanğısı, qayğı və təəssübkeşliyi ilə də seçilən bir şəxsiyyət olmuşdur. O, İslam ölkələrin mövcud vəziyyətinə, Osmanlı və Qacar hakimiyyətlərinin məğlubiyyətinə, müsəlmanların vəhdətinin pozulmasına, müsəlman dövlətlərinin tənəzzül, səfalət və ehtiyac içində çapalamalarına, müstəmləkəçiliyə düçar olmalarına görə çox kədərlənirdi. Bu səbəbdən moizə üçün qalxdığı hər minbərdə, qələmə aldığı kitablarda bu yanğısını dilə gətirir, müsəlmanları birliyə, vəhdətə, milli-mənəvi dəyərləri qorumağa, elm və tərəqqiyə səsləyirdi [رسول جعفريان، 2015].

Cənubi Azərbaycanın Xoy şəhərindən olan azərbaycanəsilli görkəmli tarixçi, tərcüməçi, ədəbiyyatşünas, bir çox kitabın müəllifi, professor Abbas Zəryabın (1919-1995) Şeyx Qasim Mühaciri haqqında xatirələri xüsusilə diqqətəlayiqdir. Abbas Zəryabın sözlərinə görə, onun yetişməsində, tərbiyəsində, dünyaya baxışında və elmə həvəsinin yaranmasında irəvanlı Şeyx Qasim Mühacirin böyük və əvəzolunmaz təsirləri olmuşdur. O, alimin elminə və ruhaniliyinə valeh olduğunu dilə gətirmişdir [عباس زرياب خويى، 1996، 29].

Professor Abbas Zəryabın xatirələrinə əsasən, şeyxin moizələri digərlərinin xütbələrindən tamamilə fərqlənirdi. Bu moizə və nəsihətlər gənc yaşlarında onun xütbələrini dinləyən Abbas Zəryabın ruhuna böyük təsir göstərmişdi. Şeyx Qasim müsəlmanların geridə qalmasından danışır, müsəlmanların bir zamankı əzəmət və qüdrətindən söz açırdı [29 ،1996 ،عباس زرياب خويى].

Abbas Zəryabın elmə bağlanmasında, alim-professor kimi yetişib böyük nüfuz qazanmasına onun təsirli çıxışları təhrikedici rol oynamışdır. Alim buna işarə edərək deyir: “*Şeyxin sözləri və həyat tərzi mənim üzərimdə dərin bir təsir qoydu və onun ən mühüm təsiri odur ki, dünya və maddi şeylər gözümdə kiçik və dəyərsiz göründü. Hətta Şeyxin o yüksək əzmkarlığını və ruhunu heç vaxt özümdə tapa bilməsəm də, onun təsiri nəticəsində mal-dövlət arxasınca getməməyə çalışdım*” [29 ،1996 ،عباس زرياب خويى].

Şeyx Qasim İrəvani ömrünün sonuna kimi, Rza Xan Pəhləvinin hicab əleyhinə olan təbliğatına qarşı çıxdı. Nəticədə fəaliyyət göstərdiyi “Namazi” mədrəsəsi bağlanmaq təhlükəsi ilə üzləşdi. Bu səbəbdən bütün gününü mədrəsədə keçirərdi. Tələbəsi Ayətullah Seyid İbrahimlə mədrəsəyə tələbə cəlb etmək üçün birlikdə çalışardı [438 ،2021 ،عادل مولايى، محمد الوانساز خويي].

**4.Əsərləri**

Mənbələrə əsasən, Şeyx Qasim Mühacirin 3 əsərinin olduğu məlumdur. Bunlardan biri “Məbdəul-islam” adı ilə çap olunmuşdur. Həmin kitabda İslam tarixindəki hadisələrdən söhbət açılır, Peyğəmbərin (s) elçilik missiyası işıqlandırlır [287 ،2011 ،الوانساز خويي].

Bu dahi şəxsiyyət eyni zamanda fəlsəfi fəaliyyət ilə də məşğul idi. Onun qələmə aldığı digər əsəri “Kitabu təməddunil-islami fi bəyani fəlsəfətil-əhkam”-ı (“Hökmlərin bəyanına dair İslam mədəniyyəti kitabı”, 1932) xüsusilə qeyd etmək lazımdır. Dini və şəri mövzuların sadə dillə təqdimatını özündə ehtiva edən bu kitabında islamın təməl fəlsəfi mövzuları ilə yanaşı, o, həmçinin həmin dövrdə xristian missionerlərin, xüsusilə də Daşnaksütyun kimi anti-türk və anti-müsəlman qüvvələrin cəmiyyətdə yaydıqları şübhə və ittihamlara qarşı cavablara yer vermişdir. Şeyx kitabında bir çox xarici müəlliflərin kitab və əsərlərinin adını çəkir, onlara istinad edir. Bu fakt onun, təkcə islam ədəbiyyatı ilə deyil, həmçinin digər dinlərin mənbələri ilə yaxından tanışlığını, o dövrün İrəvan cəmiyyətini yaxından tanıdığını, nə qədər mütaliəli və məlumatlı şəxs olduğunu göstərir [287 ،2011 ،الوانساز خويي].

Müəllif “İslam mədəniyyəti” kitabının sonunda qeyd edir ki, kitabı çap etdirmək niyyətində olub və onu yazıya köçürüb, üç tələbəsi bu kitabın mətnini redaktə edib. Şeyx kitabın sonunda “İslamda nikah prinsipləri” adlı, əlyazma halında olan başqa bir əsərindən də bəhs edir. Lakin bu əsərin mövcud olub-olmaması və ya çap edilib-edilməməsi məlum deyildir [Şeyx Qasim Mühacir İrəvani, 1932, 292].

## 5.“İslam mədəniyyəti” kitabında dini-ictimai və sosial mövzularla bağlı fikirləri

Şeyx Qasim İrəvani “İslam mədəniyyəti” adlı kitabında İslam tarixinə, müsəlmanların keçmişdə və günümüzdəki vəziyyətinə, müsəlmanlar ilə xristianlar arasındakı düşmənçiliyə, geriqalmışlıq və onun səbəblərinə, həmçinin bu səpkidə bir çox mövzulara toxunmuşdur. Kitabın giriş hissəsinə nəzər salmaq bizi onun bəzi düşüncələri ilə tanış edə bilər. Şeyx kitabın girişində o dövrdə dini elmlər sahəsindəki geriqalmışlığı, eləcə də dini və dünyəvi elmlərin hər ikisinə əhəmiyyət verməyin lüzumunu önə çəkərək yazır:

“...Ruhanilik də (cəmiyyətdə mövcud olan) tənəzzüldən kənarda deyildi, əksinə, tam mənası ilə hər şeydən daha alçaldılmış vəziyyətdə idi. Köhnə elmlərin tələbələrinin əksəriyyəti şəxsi mənfəət əldə etməkdən başqa bir məqsəd güdmürdü. Lakin bu uğurlu dövrdə həm maddi, həm də mənəvi işlər dövrün tələblərinə uyğun olaraq islahata və inkişaflara yönəlmişdir.

Bu dəyişikliklərdən biri dini işlər və dini elmlərin tədrisi üçün ilkin şərtlərin təşkili, eləcə də müqəddəs İslam dini barədə maarifləndirmə və təbliğ üsullarının inkişaf etdirilməsidir. Bu, dinə bağlı olanlar və milli maraqları sevənlər üçün ümidverici addımlardır. Tam əminliklə qeyd etmək olar ki, gələcəkdə parlaq bir dövr bizi gözləyir.

...Bu mənanı nəzərdən qaçırmaq olmaz ki, hazırda dünyanın əksər bölgələrində qabaqcıl millətlər dini məsələlərə diqqət yetirərək, maddi və sənaye elmləri kimi dini elmləri də dərinləşdirir, bu sahədə ciddi səylər göstərir və heyranedici irəliləyişlər əldə edirlər. Elm və sənət sahibləri mənəvi inanclara tabe olmuş, hər gün ruh elmi haqqında müzakirələr aparır, qeyri-adi kəşflər və təəccüblü tədqiqatlarla nəticələr yayımlayırlar. Onlar materialistlərə və naturalistlərə qarşı çox böyük bir mübarizə aparırlar. Ümid edilir ki, qısa bir zamanda naturalistlərin fikirləri elm adamlarının nəzərində dəyərsiz qalacaq və spiritualistlərin sübutlarının əhəmiyyəti ümumxalq diqqətini cəlb edəcək.

Daha maraqlısı budur ki, spiritualistlərin fikirləri və mövzularının əksəriyyəti İslam dini ilə uyğunluq təşkil edir və İslam alimlərinin, məsələn, Qəzalinin “İhyau ülumiddin”, Fəxr Razi, Şeyx Nəraqi və Mühəqqiq Ərdəbilinin əsərlərindəki sözləri ilə üst-üstə düşür. Bu vasitə ilə Quranın bir çox problemləri, İslam kitablarındakı hədislərin və xəbərlərin bir çox müşkülləri həll ediləcəkdir.

İndiyə qədər ruhun qalıcılığı və ruhani təsirlər mövzusunda kamil insanların sözləri müsəlmanların diqqətinə çatdırılmış və mənəvi məsələlərdən hesab olunmasına baxmayaraq, elm tərəfindən geniş şəkildə təsdiqlənməmişdir. Məsələn, möminlərin ruhlarının cümə gecələrində evini ziyarətə gəlməsi, ölənlərə yaxınları tərəfindən hədiyyələr və ehsanlar təqdim olunması, övladlar və nəsillər vasitəsilə günahların bağışlanması və ruhların həyat şəraiti haqqında

doğru yuxular bu günə qədər naməlum olsa da, indi ruh alimləri (spiritualistlər) tərəfindən tam təsdiqlənmişdir. Onlar bəzi ruhani təsirləri açıq-aşkar müşahidə edirlər. Bu traktatın sonunda qısaca olaraq sözügedən məsələlər İslam alimlərinin təlimatları ilə uyğunlaşdırılaraq izah ediləcəkdir.

Müsəlmanların əlində elm xəzinələri və mənəvi elmlərin mənbələri mövcud olduğu halda, bu mənbələrin qeyri-müsəlmanlara böyük fayda verdiyini unutmamalıyıq. Fransız müəllif Huvasın sözlərinə görə, İslamın elmi əsərləri və tarixi sənədləri Qərb vəhşilərini xilas etmişdir. Hazırda isə bəzi siyasi səbəblərdən İspaniyanın paytaxtında gizli saxlanılır. Buna görə də müsəlmanlar bu bilik mənbələrindən istifadə etməli, onları araşdırmalı və etinasızlıq dövrünü sona çatdıraraq tənbəllik və əyləncə ilə vaxt keçirməyə son qoymalıdırlar.

Son dünya müharibəsi adi bir qarşıdurma deyil, müsəlmanların üzərində bir növ tərbiyəvi şallaq idi. Bu ağrını hiss etdilər. Keçmiş zaman əbədi ölümə bənzəsə də, onun tarixi təsirləri zaman səhifələrində qalıcıdır. Müsəlmanlar başa düşdülər ki, bu müharibə adi qarşıdurma deyil, bilik ilə cəhalət arasında bir mübarizə idi. Əbədi olan dildə bu həqiqət bizə ruhani natiqlər və bəşəriyyətin müəllimləri vasitəsilə çatdırılmışdır: “Heç bilənlə bilməyənlər eyni ola bilərmi?”

Bu müqayisədən aydın olur ki, elmin təsiri ilə cəhalətin təsiri bir-birinə bərabər ola bilməz. Müsəlman xalqının hər bir fərdi keçmiş tarixlərə nəzər salmalı və cəmiyyətin maariflənməsi üçün öz üzərinə düşən töhfəni verməlidir, hətta bu, kiçik bir səylə də olsa.

İranın siyasi rəhbərlərinə gəldikdə, onlar xristian xalqların fəallığına qarşı öz varlıqlarını sübut etdirməli və səyləri ilə öz əziz vətənlərini xarici təsirlərdən qoruyub azad etməlidirlər...

Milli ehtiyacların xarici məhsullardan asılılığını aradan qaldırmaq məsələsi də böyük əhəmiyyət daşıyır. Ticarətçilərimiz və xalqımız milli şirkətlər qurmalı, sərvət mənbələrini artırmalı və ölkəyə xaricdən zərərli məhsulların daxil olmasının qarşısını almalıdırlar.

Ruhaniyyət və dinin yayılması məsələsinə gəldikdə isə, bu, İslam alimlərinin əsas vəzifəsidir. Xristian missionerlərin yanlış fikirlərini ifşa etmək və İslamın həqiqətlərini yayımlamaq üçün faydalı məqalələr və yazılar nəşr edilməlidir. Missionerlər yalançı incilləri yayarkən, İslam alimləri də xalqın zehnini aydınlatmalı və onları yanlışlıqlardan qorumağa çalışmalıdırlar.

Xristian missionerlər hər il milyonlarla dini kitab və traktatı müxtəlif dillərdə çap edərək şərq ölkələrinə yayır. İslam alimləri isə bu zərərli səylərə qarşı çıxaraq İslamın hikmətini təbliğ etməlidirlər.

Ümid edirik ki, İslam rəhbərləri dini və dünyəvi faydalara sahib olan bu mühüm məsələdə səylərini əsirgəməyəcək və bu yolda xüsusi mənbələrdən

istifadə edərək İslamın həqiqətlərini dünyaya çatdırmaq üçün işlər görəcəklər. Keçmişdə müsəlmanlar belə bir yolu seçmiş və "İxvanus-Səfa" kimi cəmiyyətlər qurmuşdular.

Bu cəmiyyətlərin fəaliyyətlərini xatırlayaraq və tarixdən dərs alaraq, müsəlmanlar bilik mənbələrindən istifadə etməli və millətin maariflənməsi üçün çalışmalıdırlar. Ötən dövrlərin böyük alimləri və əsərləri İslam dünyasına böyük töhfələr vermişdir. Onların bilik və hikmətləri ilə tanış olmaq, müsəlmanların həm dini, həm də dünyəvi baxımdan yüksəlişi üçün vacibdir" [Şeyx Qasim Mühacir İrəvani, 1932, 5-8].

Şeyx Qasimin bu fikirlərinə nəzər yetirdikdə, onun öz dövründəki dini, siyasi və ictimai prosesləri necə dərindən təhlil etdiyini görürük. O, geniş və dərin dünyabaxışlı bir alim olmaqla yanaşı, təkcə Cənubi Azərbaycan, mənsubu olduğu Qərbi Azərbaycan və Cənubi Qafqaz deyil, ümumən İslam dünyasının problemlərini o böyük qəlbində yaşatdığını, fikrində daim ümmət və vəhdət ideyasını daşıdığını göstərir. İrəvani müsəlman cəmiyyətlərinin dini biliklərlə yanaşı, dünyəvi biliklərə də yiyələnməsinin zəruri olduğunu bildirərək "İxvan əs-səfa" (Səfa qardaşları) fəlsəfi cərəyanını nümunə göstərir. Belə ki, hicri 4-cü (miladi 10-cu) əsrdə Bəsrədə meydana çıxmış bu cərəyanın nümayəndələri öz düşüncə sistemlərində vəhyə əsaslanan din elmləri ilə rasional elmləri birləşdirmiş, yaşadıqları dövrün bütün elmlərini özündə ehtiva edən "Rəsailu ixvanis-səfa" (Səfa qardaşları traktatları) adı ilə məşhur olmuş coxcildlik ensiklopedik əsəri qələmə almışlar. Qasim İrəvani sözügedən fəlsəfi cərəyanı nümunə göstərərək, müasir dövrdə də din elmləri ilə dünyəvi elmlərin bir-birindən faydalanmalarına böyük ehtiyac olduğunu vurğulamaq istəmişdir.

"İslam mədəniyyəti" kitabının son hissəsindən bir neçə sətrin tərcüməsi bizi Şeyxin maraqlı fikirləri ilə daha yaxından tanış edir. O yazır:

"Bir neçə il öncə bəzi İslam dövlətləri dinin siyasətdən ayrılması ilə bağlı bəyanat verdilər. Halbuki bu qərar üzərində ciddi düşünmədikləri aydın idi. Əndəlus, Qranada, Misir, Bağdad və Anadolu müsəlmanlarının yüzillər əvvəl dünyanın hakimləri, siyasətin liderləri və mədəniyyət sahəsinin qabaqcıl müəllimləri olduğu dövrləri xatırlayın. Onlar dindar deyildilərmi? Yoxsa dini siyasətdən ayırmışdılarmı? Heç biri doğru deyil. Əksinə, onlar İslamı öz fəaliyyətlərinin əsas prinsipi kimi qəbul etmişdilər.

Buna baxmayaraq, müsəlmanlar fərqinə varmırlar ki, bolşeviklik və kommunizm kimi ideologiyalar dini inkar edir və insanlıq əleyhinə çıxış edirlər. Bu cür insanlar humanizm çərçivəsindən çıxaraq qorxu və vəhşət mühitində insan hüquqlarını tapdalayaraq qəddarlıq edirlər. Hər gün minlərlə vicdanlı və şərəfli gənc onların siyasi məqsədlərinin qurbanı olur, ya dənizdə balıqlara yem edilir, ya da zorakı siyasətin qurbanı kimi (sürgünlərdə) həyatlarını itirirlər. Beləliklə, ailələri də ümid içində gözləməyə buraxılır.

Onlar öz alçaq niyyətlərini həyata keçirmək üçün bütün mənəvi dəyərləri ayaqlar altına alır və zərərli fikirlərini saf insanlara təbliğ etməklə onları aldatmağa çalışırlar. Bu yolla Makiavelli siyasətinin bir neçə günlük reallığını təmin etməyə çalışırlar.

Lakin başa düşmürlər ki, dinlərin mənəvi mahiyyəti belə mənfi təbliğatlara qarşı güclü reaksiyalar yaradır. Bir gün Cənubi Qafqazın şərəfli gəncləri tərəfindən bu cür insanlıq əleyhinə fəaliyyət göstərən kəslərdən intiqam alınacaq. Bu da göstərir ki, dinin siyasətdən ayrılması yalnız cahil fikirdir. Dinin tərəqqiyə mane olduğunu iddia etmək isə qərəzli bir yanaşmadır.

Dinləri, xüsusən də İslamı təcrid etmək istəyənlər, insanların dini dəyərlərdən uzaqlaşması üçün səy göstərirlər. Halbuki İslam da daxil olmaqla, bütün dinlər tərəqqi və inkişaf yollarını öyrədir. Müsəlman dünyasının keçmişdə inanılmaz uğurları olub, lakin hazırkı bu zəiflik yalnız İslamın əsaslarından uzaqlaşma və müəyyən tarixi təsadüflərdən qaynaqlanır.

Xüsusilə İran xalqında Avropaya təqlid istəyi xüsusi bir hal daşıyır. Onlar Avropanın texnologiya və elmdəki nailiyyətlərinə heyran qalaraq, xristianlığın tərəqqinin qarşısını aldığı iddialarını İslamla səhv salırlar. Halbuki məsələ xristianlıqla bağlıdır, İslamla deyil” [Şeyx Qasim Mühacir İrəvani, 1932, 291-292].

İrəvaninin bu ifadələri öz dövrünün reallıqlarını əks etdirir. Belə ki, həmin dövrdə bütün dünyada, eləcə də onun yaşadığı İran cəmiyyətində kommunizm ideyaları gənclər arasında təbliğ olunurdu. Bu təbliğat, həmçinin dini dəyərlərə də qarşı neqativ münasibəti ehtiva edir, ateizmin yayılmasına rəvac verirdi. Müsəlman ölkələrində fəaliyyət göstərən kommunist qruplar orta əsrlərdə Avropada katolik kilsəsinin elmi tərəqqiyə mane olduğu nümunəsini ümumiləşdirərək İslamın da eyni mahiyyət daşıdığını irəli sürürdülər. Qasim İrəvani dini qadağan edən və insanlıq üçün “tiryək” hesab edən kommunizm zehniyyətinin bəşəriyyətə sağalmaz yaralar vurduğunu, minlərlə insanı repressiyaya məruz qoyaraq cəmiyyətin mənəvi çöküşünü hədəflədiyini bildirir, islamın əsla elmə, maarifə və tərəqqiyə qarşı olmadığını, tarixdə ən böyük nailiyyətlərin məhz islam alimlərinin səyləri nəticəsində əldə edildiyini, islamın xristianlıqla müqayisəsinin doğru olmadığını bildirir.

Şeyxin dinin siyasətdən ayrılmasına etirazları isə həmin dövrdə I Dünya müharibəsindən sonra müsəlman coğrafiyasının sərhədlərinin yenidən çəkilməsi, yeni dünya nizamına uyğun olaraq bir çox teokratik quruluşlu monarxiya və hakimiyyətlərin dünyəvi idarəçiliyə keçməsi fonunda deyilmiş sözlərdir. Ömrünün böyük hissəsini teokratik və monarxiya hakimiyyətində yaşamış bir şəxs üçün mövcud reallıqları qəbul etmək heç də asan görünmür. Bu baxımdan yeni quruluşlara və idarəçilik sistemlərinə öz etirazını bildirir. Lakin eyni vaxtda islamın elmə, inkişaf və tərəqqiyə bir mane olmadığı gerçəyini də dilə gətirir və bu yöndə nümunələr təqdim edir. İslamı daha çox

mənəvi bir sistem kimi təqdim etdiyini nəzərə alsaq, onun hüquqi dünyəviliyə deyil, dini əxlaqa alternativ kimi təqdim olunan əxlaqi dünyəviliyə qarşı olduğunu irəli sürmək mümkündür.

Onun xalqına, vətəni Azərbaycana və xüsusilə doğulub boya-başa çatdığı Qərbi Azərbaycana necə bağlı bir şəxs olduğuna buradakı fikirlərinə əsaslanaraq bir daha şahid oluruq. O deyir: "*Bir gün Cənubi Qafqazın şərəfli gəncləri tərəfindən bu cür insanlıq əleyhinə fəaliyyət göstərən kəslərdən intiqam alınacaq*". Xalqın azadfikirli və ləyaqətli ziyalılarını repressiyaya məruz qoyaraq, elmi, dini, ədəbi və mədəni mirasına qəsd edən bir rejimin uzun müddət yaşamayacağını, gələcək nəsillərin öz tarixi, milli-mənəvi köklərinə, azərbaycançılıq və müstəqillik düşüncələrinə gec-tez geri qayıdacağını bəsirət və uzaqgörənliyi ilə aydın müşahidə edir.

Onun həmçinin Şirazda "İslam", eləcə də İstanbulda "Azəri Türk" jurnallarında müsəlmanların hazırkı vəziyyəti, vəhdət, islam firqələrinin həmrəyliyi və eləcə də kommunizmə qarşı məqalələri də işıq üzü görmüşdür [علي صدرايي خويي، 1994، 195].

Bunların arasında "*Azəri Türk*" jurnalını xüsusi qeyd etməliyik. Qasim Mühacirin Azərbaycana bağlılığı və 1918-ci ildə qurulmuş müstəqil Azərbaycan Xalq Cümhuriyyətinə bəslədiyi sevgisi o dönəm mühacirətdə olan hakimiyyətə münasibətdə özünü aydın büruzə verir. İrəvanda kommunist işğalınadək oradakı həmvətənlərimizin müqavimət simvollarından birinə çevrilən Şeyx Qasim ADR-in süqutu ilə mühacir həyatına başlamış və mühacirətdə qurulan hökumətlə əlaqələr yaratmışdır. Bu, Azərbaycan Cümhuriyyətinin bolşeviklər tərəfindən işğal edilməsindən sonra 1928-1931-ci illərdə İstanbulda yaşayan ziyalılarımız tərəfindən nəşr olunan, elmi, ədəbi, ictimai, iqtisadi və siyasi mövzuları əhatə edən "Azəri Türk" jurnalı ilə apardığı əməkdaşlıqla da təsdiqlənir.

**6.Nəticə**

Tarixi Azərbaycan torpağı və İslam mədəniyyətinin mərkəzlərindən olan Qərbi Azərbaycan bölgəsində xalqımızın böyük və görkəmli şəxsiyyətləri yaşayıb və fəaliyyət göstərmişlər. Belə şəxsiyyətlərdən biri də 1875-ci ildə İrəvanda anadan olmuş Şeyx Qasim Mühacir İrəvanidir. Təəssüf ki, bu günə qədər ölkəmizdə bu alimin fəaliyyətini araşdıran ayrıca bir elmi tədqiqat qələmə alınmamışdır.

Qasim İrəvani gənc yaşlarından Xoy və Təbrizdə ali dini elmlərə yiyələnmiş, doğma yurdunda xalqının dini-mənəvi xidmətində dayanmaq üçün yenidən İrəvana qayıtmışdır. Lakin yaşadığı dövr hərbi, siyasi və ictimai təlatümlər zamanına təsadüf etmişdir. Bu amillərlə tale onun üzərinə daha böyük vəzifələr qoymuş, o, XX əsrin əvvəllərində Azərbaycanı bürümüş erməni təcavüz və vandalizminə qarşı savaş cərgəsində öz yerini almışdır. İrəvan şəhərinə çar

Rusiyası tərəfindən XIX əsrdən başlayaraq yerləşdirilən ermənilərin azərbaycanlı əhaliyə qarşı təcavüzlərindən müdafiə olunmaq üçün yerli əhali Şeyx Qasimə müraciət etmiş, onun istedad və bacarığına güvənərək müqavimət cəbhəsinə rəhbərliyi öz üzərinə götürməsini xahiş etmişlər. Cəsarət və fərasəti ilə tanınan Şeyx Qasim bu tarixi və müqəddəs missiyanı üzərinə götürmüş, İrəvanda Sovet hakimiyyəti qurulanadək ermənilərə qarşı savaşmış, lakin güc nisbətlərinin düşmən tərəfdə olduğuna görə silahdaşları ilə bərabər doğma yurdu tərk edərək İrana və Osmanlı ərazisinə geri çəkilmişlər.

Şeyxin bundan sonrakı dövrü Xoy şəhərində, xüsusilə həmvətənlərinə xidmətdə keçmişdir. İrəvandan Xoya köçmüş Qərbi azərbaycanlılara himayəsini əsirgəməmiş, həm onlara, həm də yerli azərbaycanlılara tədris-maarif işlərində xidmət göstərmiş, kasıb camaatın sosial-iqtisadi çətinliklərinin həllində əlindən gələn köməkliyi etmiş, din və millət təəssübü çəkərək müsəlmanların, ələlxüsus da Cənubi Qafqazdakı həmvətənlərinin istiqlal, tərəqqi və rifahı naminə, həmçinin qarşılaşdıqları mövcud vəziyyət və ondan çıxış yollarını qələmə aldığı kitab və məqalələrlə dilə gətirmişdir.

## ƏDƏBİYYAT

**1.** سعید فاضلی خوئی، علی صدرائی خوئی، جابر فاضلی خوئی .(2012). *تذکره الفضلاء در تاریخ علماء و عرفا و شعرای خوی (قرن چهارم هجری تا قرن چهاردهم)*. قسیم. ص. 185–186، 284 ص.

**2.** جعفریان، ر.، زریاب خویی، ع.، & مهاجر، ش. ق. (2015، 23 فوریه). عباس زریاب خویی و شیخ قاسم مهاجر. *خبرآنلاین*. بازیابی از https://www.khabaronline.ir/news/401666/عباس-زریاب-خویی-و-شیخ-قاسم-مهاجر-تصاویر

**3.** الوانساز خویی، م .(2011). *مزارات خوی*. تهران: توس. ص. 285، 462 ص.

**4.** مولایی، ع.، & الوانساز خویی، م .(2021). *فرزانگان قفقاز*. قم: مؤسسه علمی. ص. 438، 760 ص.

**5.** آقاسی، م .(1350). *تاریخ خوی*. تبریز: دانشکده ادبیات و علوم انسانی.

**6.** Ağası, M. (1971). *Tarixe Xoy*. Təbriz: Ədəbiyyat və Humanitar Elmlər Fakültəsinin nəşri. s. 549.

**7.** Kermanşahi, X. (2020, 20 Aprel). Yardanqoli [Telegram kanalı]. https://t.me/s/yardangoli/3664?q=%23سراب

**8.** Kermanşahi, X. (2020). https://t.me/s/yardangoli/3664?q=%23سراب

**9.** خبرآنلاین. (n.d.). عباس زریاب خویی و شیخ قاسم مهاجر. بازیابی از https://www.khabaronline.ir/news/401666/عباس-زریاب-خویی-و-شیخ-قاسم-مهاجر-تصاویر

**10.** زریاب خویی، ع. (2024). از خوی تا قم، آلمان و آمریکا. *ایسنا*. بازیابی از https://www.isna.ir/news/1402111410249/از-خوی-تا-قم-آلمان-و-آمریکا

**11.** زریاب خویی، ع. (1996). زندگانی من. *مجله تحقیقات اسلامی*، *10*(1-2)، 19-56.ص. 29. بازیابی از http://noo.rs/HYLmR

12. Mühacir İrəvani, Ş. Q. (1932). *Kitabu təməddunil-islami fi bəyani fəlsəfətil-əhkam* [Hökmlərin bəyanına dair İslam mədəniyyəti kitabı]. Tehran, 5-8.

13. صدرائی خویی، ع. (1373). *سیماه خویی*. قم: سازمان تبلیغات اسلامی.

## REFERENCES

1. Fazeli Khoyi, S., Sedraei Khoyi, A., & Fazeli Khoyi, J. (2012). *Tadhkirat al-Fuzala in the History of the Scholars, Mystics, and Poets of Khoy (From the 4th to the 14th Century AH)*. Qasim, 185–186, 284 p. (in Persian)
2. Jafariyan, R., Zaryab Khoyi, A., & Sheikh Qasim Mohajer. (2015, February 23). Abbas Zaryab Khoyi and Sheikh Qasim Mohajer. *Khabar Online*. Retrieved from https://www.khabaronline.ir/news/401666/-عباس-زریاب-خویی-و-شیخ-قاسم-مهاجر-تصاوی (in Persian)
3. Alvansaz Khoyi, M. (2011). *Shrines of Khoy*. Tehran: Toos. p. 285, 462 pages. (in Persian)
4. Molaei, A., & Alvansaz Khoyi, M. (2021). *The Greats of the Caucasus*. Qom: Scientific Institute. p. 438, 760 pages. (in Persian)
5. Aghasi, M. (1971 [1350 SH]). *The History of Khoy*. Tabriz: Faculty of Literature and Humanities. (in Persian)
6. Ağası, M. (1971). *History of Khoy*. Tabriz: Publication of the Faculty of Literature and Humanitarian Sciences. p. 549. (in Azerbaijani)
7. Kermanshahi, X. (2020, April 20). *Yardanqoli* [Telegram channel]. https://t.me/s/yardangoli/3664?q=%23سراب (in Azerbaijani)
8. Kermanshahi, X. (2020). https://t.me/s/yardangoli/3664?q=%23سراب (in Azerbaijani)
9. *Khabar Online*. (n.d.). Abbas Zaryab Khoyi and Sheikh Qasim Mohajer. Retrieved from https://www.khabaronline.ir/news/401666/-عباس-زریاب-خویی-و-شیخ-قاسم-مهاجر-تصاویر (in Persian)
10. Zaryab Khoyi, A. (2024). *From Khoy to Qom, Germany and the USA*. *ISNA*. Retrieved from https://www.isna.ir/news/1402111410249/-از-خوی-تا-قم-آلمان-و-آمریکا (in Persian)
11. Zaryab Khoyi, A. (1996). My Life. *Islamic Studies Journal*, 10(1–2), 19–56. p. 29. Retrieved from http://noo.rs/HYLmR (in Persian)
12. Muhajir Iravani, Sh. Q. (1932). *The Book of Islamic Civilization in Explanation of the Philosophy of Rulings*. Tehran. 5–8. (in Azerbaijani)
13. Sedraei Khoyi, A. (1994 [1373 SH]). *Simaye Khoyi*. Qom: Islamic Propagation Organization. (in Persian)